## Şəmsulla Aqayi

### Zil İncimәsin

Dolanım başına ay aşıq sәnin
Sәn Allah elә çal tel incimәsin
Göylüm haray salan misri istәyir
Dәdәmsәn elә çal, zil incimәsin

Elә çal nә dolum nә fikrә qalım
Özümü bir anlıq bәxtәvәr dalım
Bülbül tәk cәh-cәh vur qadasın alım
Çiçәklәr küsmәsin gül incimәsin

Mizrabla pәrdә dә bir naxış toxu
Deyim bәs yatmışam görürәm yuxu
Ağrını mәn alım gәl elә oxu
Yurdumuz yuvamız el incimәsin

Mәclisdә ay aşıq şair oturub
Dәrdini qәmini bu an itirib
*Şәmsulla* dünyanın yükün götürüb
Könlümә gәl oxşa dil incimәsin